**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# RAUF HACIYEV YARADICILIĞI MÜASİR MUSİQİ MƏDƏNİYYƏTİNİN REALLIQLARI İŞIĞINDA

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Könül Babək qızı Hüseynova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq doktoru, professor
**Gülzar Rafiq qızı Mahmudova**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, professor
**İradə Tofiq qızı Köçərli**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Mehriban Fikrət qızı Əhmədova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Leyla Zəki qızı Quliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
____________ **Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq doktoru, dosent
____________ **Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, dosent
____________ **Aytac Elxan qızı Rəhimova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycanın və SSRİ-nin xalq artisti, görkəmli və unudulmaz bəstəkar Rauf Hacıyevin (15.05.1922–19.09.1995) yaradıcılığı Azərbaycan musiqi mədəniyyətinin ən parlaq səhifələrindən biridir.

Rauf Hacıyev musiqi sənətinin müxtəlif janrlarında yadda qalan əsərlər yaratmışdır. O, çox sayda müasir mövzulu operettaların, kinofilmlərə və dramatik tamaşalara musiqinin, simfonik əsərlərin, 150-dən artıq mahnının, kantataların, kamera-instrumental əsərlərin, baletlərin, estrada orkestri üçün müxtəlif kompozisiyaların müəllifidir. Onun yaradıcılığının magistral xəttini hər zaman mahnıları və operettaları təşkil etmişdir. Məhz bu janrlar vasitəsilə bəstəkarın musiqisi bütün dünyanı dolaşmış və sevilmişdir. Rauf Hacıyevin bir-birindən gözəl mahnıları dillər əzbəri olmuş, operettaları isə keçmiş SSRİ məkanının, həmçinin, xarici ölkələrin teatrlarının səhnələrində tamaşaya qoyularaq Azərbaycan mədəniyyətinin təbliğində və tanınmasında mühüm rol oynamışdır. Müxtəlif janrlarda yaratdığı əsərlərində o, hər zaman müasirliyin tərənnümçüsü kimi çıxış etmişdir.

Lakin belə bir ölməz sənətkarın yaradıcılığının hələ də milli musiqi elmində açılmamış səhifələri mövcuddur. Azərbaycan musiqi mədəniyyəti tarixində dərin iz qoymuş Rauf Hacıyevin yaradıcılığına müraciət etməyimizin də başlıca səbəbi elə bununla bağlıdır.

Beləliklə, müraciət etdiyimiz mövzunun aktuallığını belə əsaslandırmaq olar:

– Mövzunun seçilməsi Rauf Hacıyevin yaradıcılığının öyrənilməsi və tədqiqi üzrə elmi əsərlərin azlığından irəli gəlir. Bəstəkarın əsərlərinin bütün dövrlərdə dinləyici və tamaşaçı rəğbəti qazanmasına baxmayaraq, onun tam yaradıcılığına musiqişünaslıq aspektindən müraciət olunmamışdır. İndiyədək görkəmli və istedadlı sənətkar və ictimai xadim haqqında tutarlı monoqrafik tədqiqat aparılmamış, onun yaradıcılığının üslub xüsusiyyətlərini aşkarlayan, əsərlərinin musiqi-nəzəri təhlilini verən elmi əsərlər yazılmamışdır. Bu baxımdan bizim dissertasiyamız Rauf Hacıyevin yaradıcılıq irsinin bütün sahələrini əhatə edən ilk tədqiqat olduğuna görə xüsusi aktuallıq kəsb edir;

– Rauf Hacıyevin yaradıcılığının, müasir musiqi mədəniyyətinin inkişafı fonunda tədqiqi, bəstəkarın əsərlərinin musiqi dilinin və obrazlar aləminin irəli sürdüyü tələbdən yaranan problem kimi aktual əhəmiyyət kəsb edir;

– Rauf Hacıyevin yaradıcılıq üslubunun formalaşmasına XX əsr Azərbaycan musiqi sənətinin ən dahi simaları – Üzeyir Hacıbəyli və Qara Qarayevin yaradıcılığı böyük təsir göstərmişdir. Bəstəkarın yaradıcılıq üslubu, Azərbaycan musiqi mədəniyyətinin dərin köklərinə bağlı olmaqla yanaşı, ənənə və novatorluq məsələsinə də fərdi münasibəti ilə seçilirdi. Məhz bu aspektdən onun yaradıcılıq yolunun öyrənilməsi də əhəmiyətlidir.

Azərbaycan musiqi mədəniyyətinin bir çox görkəmli bəstəkarları – Ü.Hacıbəyli, Q.Qarayev, F.Əmirov, Niyazi, A.Məlikov, V.Adıgözəlov, A.Əlizadə, F.Əlizadə, T.Quliyev və başqaları haqqında monoqrafik əsərlər yazılmışdır. Lakin bu sırada təəssüf olsun ki, Rauf Hacıyevin yaradıcılığının bütün sahələrinin təhlilinə həsr olunan monoqrafiya, demək olar ki, yoxdur. Bəstəkarın həyat və yaradıcılıq yolunu işıqlandıran əsərlərdən E.Mirzoyevanın[1], R.Zöhrabovun[2] kitablarını göstərmək mümkündür.

Həmçinin, bəstəkarın həyat və yaradıcılığının monoqrafik prinsipə əsasən ümumi icmalını verən və məşhur əsərlərinin qısa təhlilini təqdim edən "Azərbaycan musiqi tarixi"[3] çoxcildliyindəki R.Rzaquliyevanın və "Azərbaycan musiqi ədəbiyyatı"[4] dərsliyindəki Zemfira Abdullayevanın oçerklərini göstərə bilərik.

Qeyd etmək istərdik ki, E.Mirzoyevanın monoqrafiyasında bəstəkarın həyat və yaradıcılıq yolu haqqında müəyyən məlumatlar verilmiş və onun bəzi əsərlərinin nəzəri təhlili də aparılmışdır. Lakin işdə baxılan əsərlərin əsas göstəricisi olan və milli spesifikanın məğzini təşkil edən məqam-intonasiya təhlili aparılmamış, hətta, Azərbaycan məqamlarının heç birinin adı belə çəkilməmiş, əsərlərin

---

[1] Мирзоева, Э.А. Рауф Гаджиев / Э.А.Мирзоева. – Баку: Ишыг, – 1983. – 131 с.
[2] Zöhrabov, R.F. Rauf Hacıyev / R.F.Zöhrabov. – Bakı: Şur, – 1993. – 23 s.
[3] Rzaquliyeva, R. Rauf Hacıyev / Azərbaycan musiqi tarixi. III cild. – Bakı: Elm, – 2018. – s. 407-449
[4] Qasımova, S.C. Azərbaycan musiqi ədəbiyyatı / S.C.Qasımova, Ü.İ.İmanova, Z.K.Abdullayeva. – Bakı: Elm və təhsil, – 2017. – 487 s.

intonasiya məzmununun təşkilində onlardan zəngin istifadə üsulları göstərilməmişdir. Onu da nəzərə çatdıraq ki, 80-ci illərdə yazılan bu kitabların nəşrindən sonra da Rauf Hacıyev xeyli səhnə əsərləri yaratmışdır. Şübhəsiz ki, E.Mirzoyevanın və digər kitablarda da həmin əsərlər haqqında heç bir məlumat yoxdur.

Rauf Hacıyevin fortepiano yaradıcılığına tədqiqatçı alim Tərlan Seyidovun “Развитие жанров Азербайджанской фортепианной музыки”[5], “Азербайджанская фортепианная культура XX века”[6] kitablarında müraciət edilmişdir.

Rauf Hacıyevin mahnı yaradıcılığının təhlilini musiqişünas alim İmruz Əfəndiyevanın “Новое в Азербайджанской песне”[7] və Ceyran Mahmudovanın “Mahnının qoşa qanadı – poeziya və musiqi”[8] adlı kitablarında görə bilərik. Bu kitablarda bəstəkarın bəzi məşhur mahnıları araşdırılmışdır.

Həmçinin, müxtəlif janrları tədqiq edən əsərlərdə və dissertasiya işlərində də Rauf Hacıyevin ayrı-ayrı əsərlərinə münasibət bildirilmişdir. Məsələn, skripka konserti haqqında T.Quliyevin[9], musiqili komediyaları haqqında Ü.İmanovanın[10], V.A.Əliyevanın[11], X.A.Qaradağlının[12], P.X.Fətullayevanın[13] T.Məmmədəliyevanın[14] və başqalarının tədqiqatlarında məlumat verilmişdir.

---

[5] Сеидов, Т.М. Азербайджанская фортепианная культура XX века / Т.М.Сеидов. – Баку: Азернешр, – 2006. – 270 с.

[6] Сеидов, Т.М. Развитие жанров Азербайджанской фортепианной музыки / Т.М.Сеидов. – Баку: Шур, – 1991. – 308 с.

[7] Эфендиева, И.М. Новое в Азербайджанской песне / И.М.Эфендиева. – Баку: – 1974. – 52 с.

[8] Mahmudova, C.E. Mahnının qoşa qanadı – poeziya ilə musiqi / C.E.Mahmudova. – Bakı: Mars-Print, – 2013. – 244 s.

[9] Кулиев, Т.А. Азербайджанская камерно-инструментальная и концертная музыка для смычковых инструментов / Т.А.Кулиев. – Баку: Азернешр, – 1971. – 125 с.

[10] Ülviyyə İmanova. Seçilmiş məqalələr / Tərt. ed. K.V.Ələsgərli. – Bakı: Müəllim, – 2021. – 326 s.

[11] Əliyeva, V.A. Azərbaycan bəstəkarlarının opera və operettalarında rəqs səhnələri (janrın inkişaf mərhələləri): / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2010. – 170 s.

[12] Qaradağlı, X.A. Azərbaycan bəstəkarlarının operetta və musiqi komediyalarının inkişaf mərhələlərində fərqli üslub xüsusiyyətləri (XX əsrin II yarısı): / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2018. – 147 s.

Bütün bu tədqiqatların əhəmiyyətinə baxmayaraq, Rauf Hacıyevin yaradıcılığı ayrıca, geniş nəzəri təhlil olunmamışdır. Bizim təqdim etdiyimiz dissertasiyada ilk dəfə olaraq Rauf Hacıyevin müxtəlif janrlarda yazdığı əsərlərinin obrazlar aləminin, musiqi dilinin xüsusiyyətlərinin müasir reallıqlar işığında tədqiqi kompleks şəkildə yerinə yetirilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Rauf Hacıyevin yaradıcılığından ibarətdir. **Tədqiqatın predmetini** isə bəstəkarın əsərlərinin – vokal, kamera-instrumental, operettalar, balet, skripka konserti, simfoniyası, kino musiqisinin üslub özəlliklərinin,sənət prinsiplərinin, dəst-xəttinin özünəməxsusluğunun müəyyənləşdirilməsi, musiqi dilinin xüsusiyyətlərinin araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Rauf Hacıyevin yaradıcılığının üslub xüsusiyyətlərini müasir musiqi mədəniyyətinin reallıqları işığında öyrənməkdən ibarətdir. Bunun üçün bir sıra konkret vəzifələrin həll edilməsi məqsədəuyğun sayılır:

1. Rauf Hacıyevin yaradıcılığının formalaşmasını inkişaf prosesində işıqlandırmaq;
2. Rauf Hacıyevin vokal musiqisinin üslub xüsusiyyətlərini araşdırmaq;
3. Rauf Hacıyevin operettalarının və xoreoqrafik əsərlərinin musiqisinin üslub cizgilərini müasir reallıqlar aspektindən müəyyənləşdirmək;
4. Rauf Hacıyevin kamera-instrumental əsərlərinin musiqi dilini onun yaradıcılıq üslubu kontekstində araşdırmaq;
5. Bəstəkarın kinomusiqi yaradıcılığının əsas xüsusiyyətlərini göstərmək;
6. Simfonik musiqisinin əsas üslub keyfiyyətlərini müəyyənləşdirmək.

**Tədqiqat metodları.** Tədqiqat işində tarixi, nəzəri, müqayisəli və kompleks təhlil metodları istifadə olunmuşdur.

---

[13] Fətullayeva, P.X. Azərbaycan bəstəkarlarının yaradıcılığında müzikl: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2017. – 22 s.

[14] Məmmədəliyeva, T.V. Azərbaycan bəstəkarlarının yaradıcılığında caz harmoniyası: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2008. – 24 s.

Tədqiqatın metodoloji əsasını Azərbaycan və xarici musiqişünaslarının elmi işləri təşkil edir.

Tədqiqatın metodologiyasını ilk növbədə, Ü.Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" fundamental elmi əsəri təyin edir. Bundan əlavə, tədqiqat probleminin işlənməsində Azərbaycan musiqişünasları – E.Abasovanın [15], L.Karagiçevanın [16], N.Kərimovanın [17], T.Məmmədovun [18], N.Mehdiyevanın [19], H.Qaşqayın[20], Ş.Məlikovanın[21], F.Əliyevanın[22], C.Mahmudovanın[23],

---

15 Абасова, Э.А. Оперы и музыкальные комедии Узеира Гаджибекова / Э.А.Абасова. – Баку: Академии наук Азерб. ССР, – 1961. – 192 с.

16 Карагичева, Л.В. Кара Караев. Личность. Суждение об искусстве: монографическое исследование / Л.В.Карагичева. – Москва: Композитор, – 1994. – 287 с.

17 Kərimova, N. Azərbaycan teatr musiqisinin tarixi / N.Kərimova. – Bakı: Elm, – 1986. – 200 s.

18 Məmmədov, T.A. Azərbaycan aşıq yaradıcılığı. Ali məktəbləri üçün dərslik / T.A.Məmmədov. – Bakı: Apostrof, – 2011. – 648 s.

19 Мехтиева, Н.М. Киномузыка Кара Караева / Н.М.Мехтиева. Баку: Азернешр, – 1966. – с. 32

20 Кашкай, Х.М. Азербайджанский балетный театр (вопросы музыкальной драматургии) / Х.М.Кашкай. – Москва: Советский композитор, – 1987. – 128 с.

21 Меликова, Ш.А. Морфология национального в творчестве Ниязи: монография / Ш.А.Меликова. – Баку: Адильоглу, – 2002. – 268 с.

22 Əliyeva, F.Ş. 60-70-ci illərin birinci yarısında Azərbaycan bəstəkarlarının yaradıcılığında bəzi üslub xüsusiyyətləri: / sənətşünaslıq üzrə namizədlik dis. / – Bakı, 1994. – 192 s.; Əliyeva, F.Ş. Azərbaycan musiqisində üslub axtarışları / F.Ş.Əliyeva. – Bakı: Elm və həyat, – 1996. – 118 s.; Əliyeva, F.Ş. XX əsr Azərbaycan musiqisi: tarix və zamanla üz-üzə / F.Ş.Əliyeva. – Bakı: Elm, – 2007. – 314 s.; Əliyeva, F.Ş. Musiqi tariximizin səhifələri / F.Ş.Əliyeva. – Bakı: Adiloğlu, – 2004. – 320 s.; Əliyeva, F.Ş. Şərq-Qərb kontekstində XX əsr Azərbaycan musiqisinin yeni üslub istiqamətləri. Azərbaycan çoxəsrlik qarşılıqlı çoxşahəli mədəni əlaqələrdə // IV Bakı Beynəlxalq simpoziumun məruzələrinin məcmuəsi – Bakı: Nasir, – 1999, – s. 207-209

23 Mahmudova, C.E. Azərbaycan bəstəkarlarının mahnılarında poeziya ilə musiqinin qarşılıqlı əlaqələri (1950-1990-cı illər): / sənətşünaslıq üzrə elmlər doktoru dis. avtoreferatı. / – Bakı, 2012. – 56 s.; Azərbaycan xalq və bəstəkar mahnılarının mətn xüsusiyyətləri / C.E.Mahmudova. – Bakı: ADPU-nun mətbəəsi, – 2014. – 112 s.

Z.Dadaşzadənin [24], L.Şıxlinskayanın [25], A.Hüseynovanın [26], Ü.Əliyevanın[27], K.Nəsirovanın[28] və başqalarının əsərlərini qeyd edə bilərik.

Azərbaycan musiqişünasları ilə bərabər xarici musiqi nəzəriyyəçilərinin elmi konsepsiyaları da tədqiqatın metodoloji əsasının müəyyənləşdirilməsində mühüm rol oynamışdır. Bunlardan L.Mazelin[29], S.Skrebkovun[30], V.Tsukkermanın[31] və s. tədqiqatları xüsusi əhəmiyyət kəsb edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işində aşağıdakı müddəalar irəli sürülmüşdür:

- Müasir musiqi mədəniyyəti kontekstində Rauf Hacıyevin yaradıcılığının işıqlandırılması;
- Bəstəkarın səhnə əsərlərinin müasir reallıqlar işığında təhlili;
- Rauf Hacıyevin mahnı yaradıcılığında lirikanın ifadə vasitələrinin təzahürü;
- Kamera-instrumental əsərlərinin musiqili-ifadə vasitələrinin müəyyən edilməsi;
- Simfonik musiqisində klassik və milli ənənələrin vəhdətinin tədqiqi;

---

[24] Dadaşzadə, Z.A. Azərbaycan simfoniyası (1960-1980-cı illər): janrın əsas inkişaf təmayyülərinə dair / Z.A.Dadaşzadə. – Bakı: Ziya, – 2012. – 239 s.; Biz bu dünyanın bir hissəsiyik. Məqalələr toplusu / Z.A.Dadaşzadə. – Bakı: Nurlan, – 2004. – 412 s.; Simfoniyanın fəzası.1970-80-cı illər Azərbaycan simfoniyası əsas təmayüllləri / Z.A.Dadaşzadə. – Bakı: Elm, – 1999. – 200 s.

[25] Шихлинская, Л.Ф. Узоры хореографических легенд азербайджанского балета / Л.Ф.Шихлинская. – Баку: Издательство Азербайджан, – 1996. – 192 с.

[26] Гусейнова, А.Б. Азербайджанский балетный спектакль: генезис и синтез искусств / А.Б.Гусейнова. – Баку: – 2020. – 328 с.

[27] Алиева, У.С. Семь музыкальных портретов из балета «Семь красавиц» Кара Караева / У.С.Алиева. – Баку: Ени несил, – 2000. – 40 с.

[28] Насирова, К.Я. Балет «Тысяча и одна ночь» Ф.Амирова / К.Я.Насирова. – Баку: Тэхсил, – 2005. – 71 с.

[29] Мазель, Л.А. Строение музыкальных произведений / Л.А.Мазель. – Москва: Музыка, – 1986. – 528 с.

[30] Скребков, С.С. Художественные принципы музыкальных стилей / С.С.Скребков. – Музыка, – 1973. – 446 с.

[31] Цуккерман, В.А. Выразительные средства лирики Чайковского / В.А.Цуккерман. – Москва: Музыка, – 1971. – 243 с.

- Bəstəkarın müasir balet musiqisində milli spesifikanın nəzəri baxımdan araşdırılması;

- Rauf Hacıyevin kino musiqisinin müasirlik prizmasından təhlili.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində Azərbaycan musiqi mədəniyyəti kontekstində bəstəkar Rauf Hacıyev yaradıcılığı ətraflı şəkildə araşdırılır. Dissertasiyada ilk dəfə olaraq:

- Rauf Hacıyev yaradıcılığı ayrıca dissertasiya işi kimi tədqiq olunmuşdur.

- Bəstəkarın yaradıcılığı milli və müasirlik aspektindən araşdırılmışdır.

- Tədqiq edilmiş əsərlərdə ilk dəfə olaraq məqam-intonasiya təhlili aparılmışdır.

- Rauf Hacıyevin müasirliyi ilə seçilən əsərlərinin musiqi dili: tematizmi, ritmi, melodikası, forması, harmoniyası, fakturası və s. səviyyələrdə araşdırılırmışdır.

- Bəstəkarın təhlil olunmamış əsərləri dissertasiyada ilk dəfə olaraq tədqiq olunur. Bunlardan: "Gülüşünü gizlətmə", "Ana, mən evlənirəm", "Yolayrıcı", "Ordan – burdan" operettaları, kamera-instrumental əsərlərindən – fortepiano üçün "Əlcəzair dəftəri", "Əlcəzair melodiyaları", 2 pyesi ("Asta rəqs" və "Cəld rəqs"), skripka üçün "Əlcəzair melodiyası" poeması, ağac nəfəs alətlərindən ibarət kvartet üçün "Noktyurn", "Rəqs süitası", "Huriyə" baleti, simfonik əsərləri – "Gənclik" simfoniyası, Skripka və orkestr üçün konserti, kino musiqisi.

- Bəstəkarın əlyazmaları və öz şəxsi arxivində saxlanılan əsərləri toplanmış və təhlil edilmişdir. "Huriyə" baletinin əlyazması dissertant tərəfindən sibelius proqramında nota yığılmış və çapa təqdim edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyada bəstəkarın əsərləri müasir musiqi mədəniyyətinin reallıqları baxımından ilk dəfə araşdırıldığına görə gələcək tədqiqatlarda elmi mənbə kimi istifadə oluna bilər. Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, dissertasiyanın materiallarından ali təhsil müəssisələrində – Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında, Azərbaycan Milli Konservatoriyasında, Azərbaycan Dövlət

Mədəniyyət və İncəsənət Universitetində, Bakı Xoreoqrafiya Akademiyasında, Azərbaycan Dövlət Pedaqoji Universitetində "Azərbaycan musiqi tarixi", "Harmoniya", "Musiqi forması" kimi kursların tədrisində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəaları müəllifin AAK tərəfindən tövsiyə olunan elmi jurnallarda dərc edilmiş məqalələrində, eləcə də respublika və beynəlxalq elmi konfransların materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**: Dissertasiya Üz.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında müzakirə olunmuş və müdafiəyə təqdim edilmişdir.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya "Giriş" (6 səh., 10012 işarə), 3 "Fəsil" (I fəsil – 55 səh., 88558 işarə, II fəsil – 79 səh., 116931 işarə, III Fəsil – 29 səh., 39545 işarə), onların daxilində 6 paraqraf, "Nəticə" (7 səh., 10656) hissəsindən ibarətdir. Beləliklə, dissertasiyanın həcmi "İstifadə edilmiş ədəbiyyat siyahısı" və "Əlavələr" struktur bölmələri istisna olmaqla 177 səh., 259729 işarə sayı miqdarındadır.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **I fəsli** "**Rauf Hacıyevin yaradıcılığının ümumi xarakteristikası və bəstəkarın vokal, kamera-instrumental yaradıcılığının üslub xüsusiyyətləri"** adlanır. Bu fəsil 2 paraqrafdan ibarətdir. Dissertasiyanın 1.1. paraqrafı "**Rauf Hacıyevin yaradıcılığı müasir musiqi mədəniyyəti kontekstində"** adlanır. Burada görkəmli bəstəkar Rauf Hacıyevin Azərbaycan musiqi mədəniyyətindəki rolundan bəhs edilir, yaradıcılığının ümumi icmalı verilir. Bir musiqiçi və bəstəkar kimi formalaşmasında bilavasitə Üzeyir bəy Hacıbəylinin, həmçinin, Azərbaycan Dövlət Konservatoriyasında dahi Qara Qarayevin sinfində təhsil alarkən qazandığı təcrübə və biliklərin həlledici, böyük rolu olduğu vurğulanır.

XX əsrin 50-ci illərindən başlayaraq Rauf Hacıyevin yaradıcılığının təşəkkül tapması qeyd edilir. Onun simfonist

bəstəkarlıq istedadı aşkar edilir və bunun nəticəsində Skripka üçün Konserti (1952), Azərbaycan musiqi sənətində ilk dəfə olaraq lirik-dramatik simfoniya janrının başlanğıcını qoyan “Gənclik” simfoniyası (1953) meydana gəlir. Simfonik musiqisinə bəstəkar mahnı və rəqs ünsürünü fəal tətbiq edərək özünəməxsus dəsti-xəttini yarada bilmişdir. Bu xüsusiyyət, demək olar ki, onun bütün simfonik musiqisi üçün xarakterik olmuşdur.

Bəstəkarın simfonik təfəkkürü yaradıcılığının sonrakı illərində də yazdığı əsərlərdə təzahür etdiyi göstərilir. “Rəqs lövhələri” (1954), M.Maqomayevin 80 illik yubileyinə həsr etdiyi “Poema-ekspromt” (1965), C.Cabbarlının xatirəsinə “Poema” (1969), baletlərindən süitalar (1976, 1981), “İkinci simfoniya” (1982), “Şeyx Sənan” simfonik poeması (1982), “Həzi Aslanov” (1984) poeması buna parlaq nümunədir.

Lakin bütün bunlarla bərabər, Rauf Hacıyevin yaradıcılığının “ana xəttini” mahnı təşkil etmişdir. O, mahnı bəstələməyə gənc yaşlarından başlamışdır.

XX əsrin 50-ci illərinin ikinci yarısı Rauf Hacıyevin mahnı və estrada musiqisi sahəsində yaradıcılığının inkişaf dövrü kimi qeyd edilir. 1955-56-cı illərdə bəstəkarın Azərbaycan Dövlət Filarmoniyasının nəzdində Böyük estrada orkestrini təşkil edərək onun 1964-cü ilədək rəhbəri olduğu dövrdə bəstələdiyi mahnılar vokal yaradıcılığının zirvəsi sayılır. Bu dövrdə, ən məşhur mahnısı “Sevgilim”də (1952) bəstəkarın fərdi üslub cizgiləri özünü göstərməyə başlayır. Burada milli musiqi ilə müasir estrada-caz elementlərinin vəhdəti müşahidə olunur. Bu cəhətlər həmin dövrdə yaranan “Məhəbbətin gücü”, “Sevinc mahnısı”, “Gənclik valsı” və digər lirik planlı mahnılarda özünü göstərir. Bəstəkarın bu illərdə yazdığı lirik mövzulu mahnıların çoxu müasirliyi ilə diqqəti cəlb edir.

Qəhrəmanlığın, vətənpərvərliyin lirika ilə qovuşması bəstəkarın məşhur “Azərbaycanım” mahnısında dolğun ifadəsini tapır. Vətənpərvərlik mövzusu bəstəkarın Bakı haqqında mahnılarında: “Bakının skamyaları”, “Bakı haqqında mahnı”, “Bakı küləkləri”, “Bakı vağzalında”, “Bizim Bakı”, parlaq əks olunmuşdur.

50-60-cı illərdə Rauf Hacıyev ən məşhur lirik mahnılarını bəstələyir: “Leyla”, “Lirik mahnı”, “Sevimli mahnı”, “Görüş”, Gənclik

valsı", "Sevgi haqqında mahnı", "Bahar gəlir", "İlk görüş", "Yalnız sən", "Yalnız səni sevirəm", "Bənövşə", "Ceyran" və s. Bütün bu mahnılar Azərbaycan lirik mahnı janrının klassikasına çevrilmişlər.

60-70-ci illərdə Rauf Hacıyev mahnılarla yanaşı iri həcmli vokal - əsərlər- kantata, oratoriyalar da bəstələmişdir. Bu əsərlərdə bəstəkarın yaradıcılığında mühüm yer tutan qəhrəmani-patriotik xəttin başlanğıcı qoyulur ("Azadlıq haqqında povest", "Əbədi birlikdə" oratoriyası, "And", "Səməd Vurğun" kantatası, "Kommunist haqqında poema"). 80-cı illərdə vətənpərvərlik mövzusu "Moskva" kantatasında əksini tapır.

Rauf Hacıyevin səhnə əsərləri ona böyük şöhrət gətirmişdir. Onun operettaları, baletləri dünyanın müxtəlif teatr səhnələrində tamaşaya qoyularaq Azərbaycan musiqi mədəniyyətini xarici tamaşaçılara tanıtmış və sevdirmişdir.

Rauf Hacıyev "Tələbələrin kələyi" adlı (1940) ilk operettasında Ü.Hacıbəyli ənənələrini davam etdirərək bu janrda onun yaratdığı yolla getmişdir.

60-70-ci illər Rauf Hacıyev müasir mövzular əsasında bəstələnən operetta janrı sahəsində böyük uğurlar qazanmışdır. "Romeo mənim qonşumdur" (1959), "Mənim məhəbbətim – Kuba" (1963), finlandiyalı satirik yazıçı Marti Larninin eyniadlı romanı əsasında siyasi-ictimai komediya istiqamətində olan "Dördüncü fəqərə" (1964, sonrakı redaksiya 1971), lirik məzmunlu "Gülüşünü gizlətmə" (1969) və "Ana, mən evlənirəm" (1975), "Yolayrıcında" (1983) operettaları Moskva Operetta teatrında tamaşaya qoyulmuş parlaq əsərlərdir. Bəstəkarın sonuncu operettası – "Ordan-burdan" (1987) Ü.Hacıbəylinin anadan olmasının 100 illiyinə həsr edilmiş və Azərbaycan musiqi mədəniyyətinin xəzinəsinə ilk telemüzikl kimi daxil olmuşdur.

Azərbaycanda operetta janrının tarixində yeni mərhələ təşkil edərək onun inkişafına əhəmiyyətli təsir göstərən, vokal-simfonik, balet və estrada sənətinin bir-birilə üzvi surətdə qovuşduğu operettalarında milli musiqi və müasir estrada musiqisinin sintezinə nail olunur. Bütün operettalarında musiqi xalq rəqslərinin ritmləri ilə zənginləşdirilir. Bu da onların xarakterinə nikbinlik, şənlik, xoş əhval-ruhiyyə bəxş edir. Bundan əlavə, bəstəkarın operettalarının

mövzularının müasirliyi, aktuallığı, insanların müasir gündəlik həyatı ilə bağlılığı onların yeniliyi kimi dəyərləndirilir.

XX əsrin 70-ci illərinin birinci yarısı Rauf Hacıyevin yaradıcılığında yeni mərhələni təşkil edir. Belə ki, 1971-ci ildən etibarən Əlcəzair Xalq Demokratik Respublikasına SSRİ Mədəniyyət Nazirliyi tərəfindən ezam edilən Rauf Hacıyev burada musiqi mədəniyyəti quruculuğunda fəal çalışır. Dissertasiyada onun Əlcəzairdə geniş ictimai və yaradıcılıq fəaliyyəti işıqlandırılır.

Tədqiqat işində Rauf Hacıyevin Azərbaycan estrada musiqisinin inkişafında misilsiz xidmətləri əksini tapmışdır. O, 50-60-cı illərdə estrada orkestri üçün müxtəlif əsərlər – improvizasiyalar ("Azərbaycan rapsodiyası", "Azərbaycan havaları", "Bizim ritmlər"), fantaziyalar və instrumental pyeslər ("Qaytağı", "Üç dostun rəqsi", "Zarafatlı rəqs" və s.), truba, saksofon, akkordeon üçün konsert nömrələri ("Çahargah", "Karvan", "Üç palma" və s.) yazmaqla öz repertuarını və bütövlükdə Azərbaycan estrada musiqisini zənginləşdirir.

Rauf Hacıyev ictimai fəaliyyəti ilə də yadda qalan nailiyyətlər qazanmışdır. Xüsusilə, 1965-1971-ci illərdə Azərbaycan Respublikasının Mədəniyyət Naziri vəzifəsini icra etdiyi müddətdə onun təşəbbüsü ilə Azərbaycan Dövlət xor kapellası, Mahnı Teatrı, Azərbaycan Dövlət Rəqs ansamblı yaradılmış, eləcə də dünyada birinci Xalçaçılıq muzeyi təşkil edilmiş, həmçinin, Azərbaycan musiqisinin və incəsənətinin dünya mədəni məkanına inteqrasiyası artmış və xarici mədəni əlaqələr daha da genişlənmişdir.

Beləliklə, Azərbaycan musiqi mədəniyyətinin inkişafında dərin iz qoymuş Rauf Hacıyevin yaradıcılıq fəaliyyətinin çoxaspektliliyi və çoxtərəfliliyi onun yaradıcı simasının, istedadının yüksək səviyyədə olmasından, professionalizmindən xəbər verir. Müraciət etdiyi bütün sahələrdə öz fərdi üslubunu qoruyub saxlayan bəstəkar janrından asılı olmayaraq hər bir sahədə yeni söz deməyi bacaran, yeni ideya, mövzu ilə çıxış edən kreativ sənətkar kimi hər zaman özünün zirvədəki mövqeyini qoruyub saxlamışdır.

1.2. "**Bəstəkarın vokal və kamera-instrumental əsərlərinin təhlili"** adlanan paraqrafda bəstəkarın həm mahnıları, həm də kamera-instrumental əsərləri təhlil edilir.

1.2.1. **Mahnılar.** Rauf Hacıyev Azərbaycan musiqi mədəniyyətində mahnı janrının böyük ustadı olmuşdur. Onun ölməz mahnıları Azərbaycan vokal sənətinin inkişafında əvəzedilməz rol oynamış və musiqi sənəti səlnaməsinə qızıl hərflərlə həkk olunmuşdur. Məhz mahnı janrında onun yaradıcılığının əsas üslub xüsusiyyətləri formalaşmış, parlaq və fərdi yazı tərzi cilalanıb təsbit edilmişdir.

Bəstəkar mahnıları üçün öz müasirlərinin – Ə.Əlibəylinin, T.Mütəllibovun, Ə.Mehdiyevin, S.Rüstəmin, T.Elçinin, O.Hacıqasımovun, Y.Həsənbəyin, R.Rzanın, D.Kisinin, V.Draqulskinin və başqa şairlərin əsərlərini seçmişdir. Hansı şairə müraciət etməsindən asılı olmayaraq, Rauf Hacıyev daima lirikaya meyl etmişdir.

Dissertasiyada Rauf Hacıyevin mahnılarının məzmununa görə janr təsnifatı verilmişdir. 1 – Vətənpərvərlik mövzusunu təcəssüm edən patriotik mahnılar: "Azərbaycanım", "Bakı haqqında mahnı", "Sevimli şəhər", "Bahar gəlir", "Samur", "Sülhü qoruyaq", "Gənclik haqqında mahnı", "Gənclik marşı" və s.; 2 – Lirik-məhəbbət mahnıları: "Sevgilim", "Leyla", "Saçlarına gül düzüm", "Təkcə səni sevmişəm", "Sevdiyim qız", "Bəlkə yarım gələn oldu", "Gülə bilməz gülüm" ("Bahar sənsiz") və s.; 3 – Əmək mövzusu ilə bağlı olan mahnılar: "Neft daşlarında" və s.; 4 – Zarafatcıl mahnılar: "Ceyran" və başqaları.

Onun ən müxtəlif mövzulu mahnılarında lirik ifadə mütləq özünü göstərir. Lirizm bəstəkarın mahnılarının həm melodikasında, həm də harmoniyasında dolğun ifadəsini tapır.

Rauf Hacıyevin mahnılarının əsas göstəricilərindən biri – janrlılığıdır. Bu əsərlərin çoxu marş, rəqs janrları ilə bağlıdır. Burada bəstəkarın çox vaxt meyl etdiyi məişət janrlarından valsvarilik vasitəsilə əsas emosional vəziyyətin açılmasına nail olunur (məsələn, "Bakı haqqında mahnı", "Bahar gəlir", "Bənövşələr" və s.).

Marşvarilik də mahnılarda geniş və həcmli şəkildə həllini tapır ("Sülhü qoruyaq!", "Gənclik haqqında mahnı", "Gənclik marşı" və s.), belə mahnılarda emosional hisslərin açılışı möhtəşəm və əzəmətli verilir.

Mahnılarında ümumavropa musiqi təfəkkürü çərçivəsinə xalq mahnı yaradıcılığının üslub cizgilərini yenidən işləyib daxil etməklə bəstəkar özünün fərdi musiqi dilini formalaşdırır. Mahnıların musiqi

dilində caz və milli lad sistemin vəhdətindən yaranan özünəməxsus harmonik “boyalar”, klaster-akkordlar, dissonans komplekslər melodik xəttin ardıcıl məntiqli açılışına tabe olur. Cazın təsiri daha çox mahnıların harmonik dilində klaster təəssüratı yaradan köməkçi tonların üçsəslik və septakkordlarından geniş istifadə olunmasında özünü göstərir. Bunlar əsasən bir çox kadans dönmələrdə bifunksional komplekslər əmələ gəlir. Məsələn, dominant bas üzərində minor subdominanta (II əskildilmiş akkord) verilir.

R.Hacıyevin mahnılarının melodik strukturunda muğamın improvizasiyalılığından irəli gələn ifa tərzi ilə analogiyalara da rast gəlmək olar. Belə ifa tərzi mahnılarda dəqiq metroritmik struktur çərçivəsinə uyğun yerləşdirilir. Bu tip melodik strukturlarda danışıq-deklamasiyalı ifa tərzi, xüsusilə, diqqəti cəlb edir (“Sevgilim”, “Leyla” və s.).

Beləliklə, Rauf Hacıyev mahnılarında janrın üslub potensialının maksimum imkanlarından istifadə etməklə müasiri olduğu dövrün ruhunu, doğma vətəninin sevimli obrazını və həmvətənlərinin mənəvi aləmini, əhval-ruhiyyəsini təcəssüm etdirə bilmişdir. Bəstəkarın mahnılarında XX əsrin ikinci yarısında Azərbaycan musiqi mədəniyyətində milli və dünya musiqi sənəti ilə qarşılıqlı əlaqənin dərin sintezi özünün parlaq ifadəsini tapmışdır. Mahnıların musiqi dilində, bir tərəfdən, milli lad sisteminin qanunauyğunluqlarına dərindən bağlılıq, digər tərəfdənsə, romantizmin, impressionizmin, XX əsr müasir estrada musiqisinin bəzi üslub təmayüllərinin (caz və s.) cizgilərinin mənimsənilərək tətbiq edilməsi müşahidə olunur.

1.2.2 **Kamera-instrumental musiqi.** Burada bəstəkarın fortepiano üçün pyesləri (“Əlcəzair melodiyaları”, “Əlcəzair dəftəri” silsilələri), sonatinası, skripka və fortepiano üçün “Əlcəzair melodiyası” poeması, ağac nəfəs alətləri üçün “Noktyurn”, ağac nəfəslilər və fortepiano üçün xalq melodiyaları əsasında “Rəqs süitası” və s. təhlil edilir.

Rauf Hacıyevin kamera-instrumental yaradıcılığında uşaq və gənc ifaçılar üçün nəzərdə tutulan kiçik həcmli fortepiano pyesləri xüsusi yer turur. Onun Əlcəzair motivləri əsasında yaratdığı silsilələr bəstəkarın XX əsrin 70-ci illərində Əlcəzairdə fəaliyyət göstərdiyi

dövrdə, Əlcəzair Milli Konservatoriyasında və ilk musiqi məktəbində pedaqoji fəaliyyətinin əsas nəticəsi olaraq yaranmışdır.

"Əlcəzair melodiyaları" – 6 lakonik miniatürdən ibarət fortepiano silsiləsidir. Bu, müxtəlif vəziyyət, hal və təəssüratları əks etdirən musiqi lövhələridir. Təzadlı tutuşdurmalar, milli lad əsasına istinad edən parlaq və aydın tematizm, yığcam melodik və ritmik strukturlar, sadə faktura quruluşları və s. silsilənin əsas göstəriciləridir: 1.Presto. g-rast; 2.Andante. a-şur; 3.Presto. e-şur; 4. Andante cantabile. e-şüştər; 5.Andante. G-dur; 6.Andantino. d-şur.

"Əlcəzair dəftəri" adlanan fortepiano silsiləsində isə dörd musiqi nömrəsi janr müxtəlifliyi ilə fərqlənir: 1."Əlcəzair rəqsi"; 2."Hekayə"; 3."Mahnı"; 4. "Rəqs".

"Əlcəzair rəqsi" – xarakterinə və musiqi dilinin xüsusiyyətlərinə görə şərq rəqs musiqisi elementlərini özündə toplamışdır. Lirik qadın rəqsləri üçün tipik olan melodik zəriflik, metroritmik oynaqlıq bu nömrənin əsas göstəriciləridir.

Rauf Hacıyevin Əlcəzair mövzusunda yazdığı instrumental əsərlərindən biri də Skripka və fortepiano üçün "Əlcəzair melodiyası" poemasıdır (1977). Poeması lirik-dramatik xarakterə malik instrumental pyesdir. Milli ladintonasiya əsasında bəstələnən bu əsər emosional dolğunluğu və sərbəst inkişaf prinsipi ilə diqqəti cəlb edir. Burada muğam və poemaya xas olan tematik inkişaf xüsusiyyətləri musiqi materialının ekspozisiya tipinin üstünlüyü, formanın dinamikliyi ilə səciyyələnir. Poema görkəmli Əlcəzair musiqiçisi Hacı Abdel Kərim Dalinin xatirəsinə ithaf edilmişdir.

Rauf Hacıyevin instrumental əsərlərində xalq musiqisinin ayrı-ayrı, lakin semantik cəhətdən çox güclü elementlərinin öz həllini tapmaqla yanaşı, müəyyən janrların xarakter cəhətlərinin istifadə edilməsi özünü göstərir. Bu, bəstəkarın fortepiano üçün xalq melodiyaları əsasında yazdığı iki pyesində aydın görünür. Onun "Asta rəqs" və "Cəld rəqs" adlı fortepiano pyesləri Azərbaycan xalq rəqs musiqisinin fortepiano üçün işləməsi kimi diqqətəlayiqdir. Hər iki rəqsdə Rauf Hacıyev Azərbaycan xalq rəqs musiqisinin özünəməxsus ifadə vasitələrinin bacarıqla göstərilməsinə nail olmuşdur.

Bu keyfiyyətlər bəstəkarın fortepiano əsərləri ilə yanaşı, onun ağac nəfəs alətləri üçün bəstələdiyi "Noktyurn" və "Rəqs süita"sında

da müşahidə olunur. Xüsusilə, “Rəqs süitası”nda bəstəkar Azərbaycan milli rəqs musiqisində ifadə olunan milli semantikanı, tipoloji ritmoformulları dərindən mənimsəyərək yeni səviyyədə təqdim edə bilmişdir.

Rauf Hacıyevin kamera-instrumental yaradıcılığında kiçik həcmli əsərlərlə yanaşı, iri həcmli əsərlərindən fortepiano üçün Sonatinası üslub xüsusiyyətləri baxımından olduqca maraqlıdır. Sonatina janrın əsas xüsusiyyətlərinin saxlanıldığına və milli üslubda yazıldığına görə diqqətəlayiqdir.

Rauf Hacıyevin kamera-instrumental musiqisinin təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, bunlarda milli musiqi qanunauyğunluqları parlaq, fərdi, özünəməxsus tərzdə əksini tapmışdır.

Rauf Hacıyevin kamera-instrumental yaradıcılığında onun, xüsusilə, “uşaq” fortepiano əsərlərində ifaçılıq texnikasının mürəkkəbləşməsi və zənginləşməsi onların obrazlı-emosional xüsusiyyətlərinin dərinləşməsi ilə paralel şəkildə yerinə yetirilmişdir ki, bu da öz növbəsində, müasir tələblərə cavab verən gənc ifaçıların yetişməsində və hazırlanmasında önəmlidir.

Bəstəkarın kamera-instrumental əsərlərində folklorun ayrı-ayrı elementlərinin klassik pianizm elementləri ilə yanaşı, müasir pianoçuluqda qəbul olunmuş səs ahənginin intonasiya – tematik və koloristik xüsusiyyətləri ilə uzlaşması fortepiano musiqisində mövcud reallıqları parlaq əks etdirir. Bu əsərlərdə Rauf Hacıyev alətin zəngin ifadə imkanlarını həm də romantizm, impressionizm, klassik, caz yazı üsulları ilə vəhdətdə verməklə müasir reallıqların təcəssümünə cəhd göstərməsini sərgiləyir.

Dissertasiyanın II fəsli **“Rauf Hacıyevin yaradıcılığında musiqili səhnə janrları müasir reallıqların axtarışında”** adlanır. Bu fəsil də iki paraqrafdan ibarətdir. Fəslin **2.1. “Bəstəkarın operettalarında müasir reallıqların təzahürü”** adlı paraqrafında müasir mövzu müxtəlif aspektlərdən şərh edilir. Bunlarda həm müasir məişət səhnələri, həm vətənpərvərlik borcu, həm əxlaq-tərbiyə problemi, həm köhnəliklə mübarizə tematikası öz dolğun ifadəsini tapır. Bu fəsildə bəstəkarın “Gülüşünü gizlətmə”, “Ana, mən evlənirəm”, “Yolayrıcında” və “Ordan-burdan” operettaları ətraflı təhlil edilir.

XX əsrin ortalarından başlayaraq Rauf Hacıyevin də yaradıcılığında musiqili komediya janrı sahəsində əldə etdiyi nailiyyətləri əlamətdar olmuşdur. Demək olar ki, bu dövrdən etibarən musiqili komediya janrı Rauf Hacıyevin yaradıcılığında fəal və aparıcı sahəyə çevrilir. Janrın kütləviliyi və demokratikliyi bəstəkarın bu sahəyə olan marağını stimullaşdırır.

Rauf Hacıyev dahi Üzeyir Hacıbəylinin ənənələrini davam etdirərək və XX əsr sovet operetta janrında böyük nailiyyətlər qazanan İ.Dunayevskinin bu sahədə topladığı təcrübəsini, həm də xarici müzikl janrının müasir cizgilərini yaradıcı mənimsəyərək Azərbaycan musiqi mədəniyyətini musiqili komediyanın müasir mövzuda yeni lirik-məişət tipi ilə zənginləşdirmişdir.

Musiqili teatr Rauf Hacıyev üçün milli musiqinin xarakter cəhətlərini göstərmək, məişət və müasir estrada musiqisinin imkanlarından istifadə etmək üçün geniş məkan olmuşdur. O, xalq musiqi janrlarını müasirliyin bir çox məsələlərinin göstərilməsinə cavab verən sahə kimi təfsir etmişdir. Məhz bu səbəbdən onun musiqili komediyalarında ansambl, mahnı nömrələri ilə yanaşı, vals, marş, xalq rəqs və caz musiqi elementlərinin sintezindən lirik-komik başlanğıcın uzlaşdırılmasına nail olur.

Musiqili komediya janrı Rauf Hacıyevin yaradıcılığının əsas laboratoriyası kimi dövrün siyasi-iqtisadi, mənəvi-etik problemlərinin açıq carçısına çevrilir.

Onun yaradıcılığı üçün janr paradiqması lirik operetta janrı klassik və müasir operetta dramaturgiyasının sintezinin nəticəsi kimi çıxış edir.

Rauf Hacıyevin musiqili komediyalarının əsas mövzusunu lirik istiqamət təşkil edir. Bu, operettaların intonasiya-tematik əlaqələr və leytmotiv inkişaf sistemində özünü göstərir. Onun operettalarının musiqi dilinin əsas göstəricisi – milli mənbələrin müasir estrada musiqi üslubu ilə sintezindən ibarət olmasıdır. Bəstəkarın musiqili komediyalarında milli xarakterli melodiyaların, parlaq ritmik əsasın, mürəkkəb harmoniyaların vəhdəti musiqi materialını çox gumrah, nikbin və yüksək pafoslu edir.

### 2.2. “Rauf Hacıyevin yaradıcılığında balet janrı. “Huriyə” baleti.

XX əsrin 70-ci illərində Əlcəzair Dramatik sənətlər və Xoreoqrafiya institutunun yaradılması ilə əlaqədar Milli teatrın əsası qoyulur və bunun da tərkibində balet truppası fəaliyyət göstərməyə başlayır. Rauf Hacıyev yaradılan bu balet truppası üçün ilk Əlcəzair milli baletini yazan bəstəkar kimi tarixə düşmüşdür.

Əlcəzair Mədəniyyət Nazirliyinin sifarişi ilə Rauf Hacıyevin yazdığı "Üç inqilab" (1973) adlı ilk Əlcəzair baleti ölkənin mədəni həyatında əsl "inqilab" yaradır. Bu mövzu ilə bağlı Rauf Hacıyev Əlcəzair musiqili teatrı üçün daha iki balet bəstələyir. Bunlar "Alov" (1976) və "Huriyə" (1979) baletləri idi. Hər üç balet Əlcəzair xalqının azadlıq uğrunda mübarizəsinə, yeni müasir həyat quruculuğu mövzusuna həsr edilmişdir. Bunların hər birində bəstəkar yüksək dərəcədə sənətkarlıq və peşəkarlığını nümayiş etdirmişdir.

"Huriyə" baletinin adı əsərin əsas qəhrəmanı olan qızın – Huriyənin adından götürülmüşdür. Qeyd etmək istərdik ki, əsər bir çox mənbələrdə "Hürriyət" kimi təqdim olunsa da bəstəkarın əlyazmasında əsərin adı "Hourija" qeyd olunub. Bu da ərəb dilində huri, mələk anlamını daşıyır. Azərbaycan dilinə isə Huriyə kimi tərcümə olunur. Baletdə (libretto müəllifləri Rauf Hacıyev və Əl-Hadi Şərif) Rauf Hacıyevin diqqətini yeni bir mövzu – Əlcəzairdə sosial inkişaf, Əlcəzair qadınının azadlığı uğrunda mübarizəsi problemi cəlb edir.

"Huriyə" baletinin musiqisi xalq musiqi yaradıcılığı ilə üzvi surətdə bağlıdır. Baletdə əsl xalq melodiyalarından, Azərbaycan xalq rəqs melodiyalarının tipik intonasiya elementlərindən də geniş istifadə olunmuşdur. Baletin melodiyaları daha çox Azərbaycan xalq musiqisi üçün səciyyəvi olan intonasiyalarla zəngindir, bunların çoxuna Azərbaycan musiqisinin lad quruluşunun xüsusiyyətləri, ritmik bəzəkləri, xalq musiqi alətlərinin səslənməsini xatırladan tembrləri xasdır. Əlbəttə, bəstəkar partituraya Əlcəzair ruhunu, milli musiqisinin özünəməxsusluğunu gücləndirmək məqsədilə xalq çalğı alətlərini (qayt, darbuk) də daxil etmişdir.

Rauf Hacıyevin baletinin musiqili-plastik strukturu klassik baletlərin qaydaları əsasında qurulmuşdur. Lakin buradakı formaların – duetlərin, solo və kütləvi rəqslərin musiqi materialına müasir

leksikanın elementləri daxil olunduğuna görə onlar yeni səslənmə qazanırdı.

Beləliklə, Rauf Hacıyevin Əlcəzair mövzusunda bəstələdiyi baletləri ilk növbədə, bu ərəb ölkəsində baş verən reallıqların təcəssümünə həsr olunduqlarına görə xüsusi maraq kəsb edirdi. Baletlərdə inqilabi hadisələr, xalqın azadlıq və sülh uğrunda apardığı mübarizə, ölkədə mərhələlərlə radikal dəyişikliklərin, yeniliklərin, sosial tərəqqinin, reallıqların dolğun və inandırıcı surətdə təcəssümü həmin dövr bütün Əlcəzair incəsənəti üçün xarakterik idi. Xüsusilə də, baletlərin ideya-mövzunun çatdırılmasında bəstəkarın xalqa yaxın olan musiqisi həlledici rol oynayırdı.

Dissertasiyanın **III fəsli "Bəstəkarın simfonik yaradıcılığının üslub xüsusiyyətləri" adlanır.** Bu fəsil iki paraqrafdan ibarətdir. **3.1."Rauf Hacıyevin simfonik yaradıcılığı" adlı** paraqrafda bəstəkarın yaradıcılığının ilk dövrünün məhsulu olan Skripka Konsertinin və "Gənclik" simfoniyası təhlil edilir.

Rauf Hacıyevin simfonik musiqi sahəsində ilk təcrübəsi onun Skripka üçün Konserti və Birinci "Gənclik" simfoniyası olur. Janrın ənənələrinə sadiqlik, milli elementlərin müasir musiqi vasitələri ilə bağlılığı artıq ilk simfonik əsərlərdə müşahidə olunur.

R.Hacıyevin skripka konserti milli mənbələrə sıx bağlı olan bir əsərdir. Təhlil olunan əsərdə musiqi ifadə vasitələrində Azərbaycan xalq musiqisi ilə əlaqə özünü aydın göstərir. Bunu Azərbaycan lad sisteminin major-minor lad sistemi ilə üzvi sintezində, milli intonasiya, metro-ritmik əsaslardan və instrumental xalq ifaçılıq tərzindən bacarıqla bəhrələnməsində görmək olar.

Bəstəkarın skripka konsertində klassik ənənələrə istinad etməklə xalq musiqisindən də üzvi surətdə istifadə olunur. Demək olar ki, əsərin müəyyənedici xarakter cəhətlərindən biri – rəqs janrına istinad etməsindən ibarətdir. Bəstəkarın musiqisi üçün müxtəlif rakurslarda təqdim olunan rəqsvarilik (qəhrəmani-patriotik, lirik, skertsolu və s.) xarakterikdir. Əsərdə mühüm yer tutan klassik formaları bəstəkar öz üslubuna xas olan xalq musiqisinin xarakter cizgilərilə, həmçinin, müasirlik aşılayan ritmik nəbzi ilə zənginləşdirir.

Rauf Hacıyevin axtarışlarla zəngin olan belə bir dövrdə simfonik musiqiyə müraciət etməsi zəruri idi.Onun konservatoriyada

Qara Qarayevin sinfində oxuduğu illərdə qazandığı ən qiymətli cəhətlər Böyük Simfonik Orkestr üçün yazdığı Birinci "Gənclik" simfoniyasında (1953) əksini tapmışdır.

Qeyd edək ki, Rauf Hacıyevin "Gənclik" simfoniyası Azərbaycan simfonizmində ilk lirik-dramatik simfoniya kimi musiqi mədəniyyəti xəzinəsinə daxil olmuşdur. Simfoniyanın ilk ifası bəstəkarın Konservatoriyanı bitirərkən buraxılış imtahanında Maestro Niyazinin rəhbərliyi altında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət simfonik orkestrinin ifasında səslənmişdir.

Rauf Hacıyevin "Gənclik" simfoniyasının yaranmasına, dramaturji konsepsiyasının qurulmasına ondan bir il öncə görkəmli rus-sovet bəstəkarı S.Prokofyevin gəncliyə həsr etdiyi VII (cis-moll) simfoniyasının təsiri olmuşdur. Burada gənc bəstəkarın Vətəni, onun işıqlı gələcəyi haqqında nikbin, inamlı baxışları öz əksini tapmışdır.

Beləliklə, "Gənclik" simfoniyasında Rauf Hacıyev əsasən Skripka üçün Konsertində təcəssümünü tapan obrazlar dairəsinə istinad edir. Lakin simfoniyada bu obrazlar daha böyük əhəmiyyət və vüsət qazanırlar. Belə ki, simfoniyanın birinci hissəsinin təzadlı mövzuları (əsas və köməkçi) müasiri olduğu gəncliyin vacib obraz xüsusiyyətini – qəhrəmanlıq ruhunu və mənəvi saflığını əks etdirir, ikinci hissənin parlaq Skertsosu yumorla dolu rəngarəng məişət şəkillərini canlandırır, üçüncü hissənin lirik ifadəliliyi birinci hissənin epik hekayəti ilə əlaqəni davam etdirir və nəhayət, dördüncü hissə xalq şənliyinin təcəssümü kimi bütün silsiləni tamamlayır.

Rauf Hacıyevin simfonik musiqisində bəstəkarın peşəkarlığı həm əsərlərinin məzmununda, həm də musiqili ifadəsində özünü parlaq göstərir.

3.2.**"Rauf Hacıyevin yaradıcılığında kino musiqisi"** adlı paraqrafda bəstəkarın bu sahəyə XX əsrin ikinci yarısında, dünya kinomusiqisinin təsirli və mürəkkəb janr sahəsinə çevrildiyi bir zamanda müraciət etdiyi qeyd olunur. Bu janr Rauf Hacıyevin müasir bəstəkar kimi, kino musiqisinə olan marağını fəallaşdırır.

Bəstəkarın 50-ci illərdə çəkilən filmlərə yazdığı musiqisində simfonik təfəkkür tərzi özünün parlaq təcəssümünü tapır. Onun 1956-cı ildə "Qara daşlar" bədii filminə ilk dəfə olaraq yazdığı kino musiqisində öz müəllimi Qara Qarayevin bir neçə il öncə "Xəzər

neftçiləri haqqında povest" (1953) kinofilminə yazdığı musiqinin təsiri özünü bildirir. "Qara daşlar"ın musiqisi də Q.Qarayevin kinofilmində olduğu kimi, kino hadisənin ideya mənasının aşkarlanmasına yönəlmişdir. Böyük emosional gərginliyə malik olan simfonik şəkillər filmdə dramaturji kulminasiyanı təşkil edən - "Tufan", "Dənizdə", "Yanğın" kimi səhnələrində parlaq musiqili təzahürünü tapır. Bunlarla yanaşı filmdə lirik məhəbbət məzmunlu ("Sevgilim, ürəyim sənindir"), həmçinin qəhrəmani pafoslu ("Mavi Xəzər") mahnı nümunələri də xüsusi yer tutur.

Rauf Hacıyevin 1959-cu ildə Azərbaycan kinoistehsalının "Bir qalanın sirri" (rejissor Əlisəttar Atakişiyev, ssenari müəllifi Məmmədhüseyn Təhmasib) ilk nağıl-bədii filminə bəstələdiyi musiqi də onun bu dövrdə yazdığı kinomusiqisinin əsas üslub xüsusiyyətlərini davam etdirir və Azərbaycanda ilk nağıl-filmə musiqi yazan bəstəkar kimi tarixə düşür. Filmin musiqisində bəstəkarın ən böyük nailiyyətindən biri – uzaq keçmişi müasirlik prizmasından yanaşaraq xarakterizə etməsi olmuşdur. Bunu mürəkkəb orkestr partiturası və alətlərdən məharətlə istifadə olunduğu parlaq əks etdirir. Orkestr hadisələri sadəcə müşayiət etmir, həm də onları gərgin dramaturji ekspressiya ilə zənginləşdirir.

60-cı illərdə Rauf Hacıyevin kinomusiqisində həmin dövrün milli kino sənəti üçün tipik olan vacib tendensiya aydın müşahidə olunur ki, bu da "musiqili film" və yaxud "mahnı filmlər" adı ilə tanınır. Onun musiqili filmlərdən – "Mən rəqs edəcəyəm" ("Əmək və qızılgül", 1962), eyniadlı operettasının motivləri əsasında "Romeo mənim qonşumdur" (1963) və "Əhməd haradadır?" (1963), "Qaraca qız" (1966), "Torpaq, Dəniz, Od, Səma" (1967) və s. həmin dövrün kinoistehsalı üçün tipik olan istiqamətdə yaranmışdır.

Rauf Hacıyevin musiqili kinoda bəstələdiyi mahnılar filmin əsas məğzinin ifadəçisi kimi onun musiqili-dramaturji mərkəzinə çevrilir. Mahnı artıq öncədən müəyyən epizodun ruhunu kifayət qədər dəqiq əks etdirir və onun anlaşılmasına imkan verir. Beləliklə, bəstəkar filmdə müəyyən xəttlə bağlı olan mahnı nömrələrinə istinad edərək kinofilmin əsas obraz məzmununu və ideyasını açmağa nail olunur. Təsadüfi deyil ki, məhz mahnı filmi bütövlüklə bürüyərək, dramaturgiyanı möhkəmlədir və çox vaxt bütün filmi çərçivəyə alır

(Məsələn, “Romeo mənim qonşumdur” filmində “Sevgilim” mahnısı,“Əhməd haradadır?”da “Gənclik nəğməsi” kimi və s.).

Beləliklə, Rauf Hacıyevin bəstələdiyi filmləri – kinokomediya, kinopovest, kinonovella, nağıl-kino və sadəcə musiqili kino növünə ayırmaq olar. Bunların hamısında Rauf Hacıyevin nümayiş etdirdiyi yüksək peşəkarlığı və sənətkarlığı geniş tamaşaçı auditoriyası ilə ünsiyyət qura bilməsi bacarığından irəli gəlirdi ki, bu imkanı və məharəti ona yaradıcılığının ən aparıcı janrı olan – musiqili komediya verirdi.

Dissertasiyanın **Nəticə** bölməsində Rauf Hacıyevin yaradıcılığının kompleks təhlilində aşağıdakı müddəalar əldə olunmuşdur:

- Rauf Hacıyev yaradıcılığının genişliyi və çoxcəhətliliyi ilk dəfə olaraq,müasir musiqi mədəniyyəti kontekstində araşdırılmışdır.

- Dissertasiyada onun yaradıcılıq axtarışlarının aparıcı parametri kimi müasirlik kateqoriyası əsas götürülmüşdür. Bu aspekt bəstəkarın əsərlərinin məzmunlu, struktur, ladintonasiya, harmoniya,formayaradıcı xüsusiyyətlərinin müəyyənləşdirilməsində ümumi əsas kimi baxılmışdır.

- Dissertasiyada aparılan kompleks təhlil Rauf Hacıyevin yaradıcılığının fərdi üslub xüsusiyyətlərini də əsaslandırmışdır.

- Bəstəkarın yaradıcılıq üslubunun parlaq təcəssümü bütün əsərlərində ifadə olunur. Onun melodikasında milli və müasir estrada musiqisinin intonasiya elementləri üzvi surətdə qovuşaraq bəstəkarın mahnılarının özünəməxsus üslub xüsusiyyətlərini müəyyən edir. Mahnıların alterasiyalı harmoniyaları, zərif bəzəkli səsaltılar, lad-tonal boyaların parlaq palitrası, ritmik şəklin sinkopalı fiqurasiyaları vəhdətdə bəstəkarın fərdi musiqi dilini nümayiş etdirir. Mahnı Rauf Hacıyevin müraciət etdiyi bütün janrlarda (operettalarda, simfonik musiqisində, kamera-instrumental əsərlərində, kinomusiqisində və s.) mühüm dramaturji funksiyanı yerinə yetirmişdir.

- Rauf Hacıyev Azərbaycan musiqi mədəniyyəti tarixinə operetta janrının görkəmli nümayəndəsi kimi daxil olmuşdur. Onun operettalarında mahnı ideoloji fokusa çevrilir və özündə əsərin başlıca ideya əsasını cəmləşdirərək mərkəzi yer tutur. Ona görə də Rauf Hacıyevin operettalarını “mahnı operettası”, musiqili komediya, müzikl, revyu, kinooperetta, teleoperetta növlərinə

ayırmaq mümkündür. Bu da bəstəkarın janra geniş aspektdən yanaşmasını, yeni rakurslardan baxmasını sübut edir.

- Aparılan araşdırmalar zamanı Rauf Hacıyevin simfonik və kamera instrumental yaradıcılığında da mahnı-rəqs ünsürünün prioritet təşkil edərək əsərlərin dramaturji inkişafında əhəmiyyətli funksiya daşıdığı aşkarlanmışdır. Əsərin dramaturgiyasında mahnı-rəqsin əhəmiyyəti haqqında bəstəkarın mövqeyi, onun müəllif təfəkkürü simfonik əsərlərində mahnı və mahnı-rəqs tematizmi vasitəsilə simfonizmin müəyyən tipinə gətirib çıxarmışdır. Simfonizmin məhz bu növü Azərbaycanda lirik-dramatik simfoniyanın ilk nümunəsi olan "Gənclik" simfoniyasında əksini taparaq R.Hacıyevin yaradıcılığının ən əhəmiyyətli üslub keyfiyyəti kimi dəyərləndirilir.

- Rauf Hacıyevin əsərlərinin musiqi dilinin özünəməxsusluğu müasirliklə milliliyin sintezinə əsaslanır. Burada müasir, dövrünün dəbdə olan üslub cizgiləri ilə Azərbaycan milli musiqi dilinin üzvi birliyi onun yaradıcılığının əsas göstəricisi kimi müəyyənləşir.Bu vacib göstərici R.Hacıyevin yaradıcılığının janr və formalarının müxtəlifliyində aydın müşahidə olunur. Bir tərəfdən, klassik ənənələrə sadiqlik, digər tərəfdən, keyfiyyətli müasirləşmə, yeniliyə cəhd onun əsərlərinin fərdiliyini, özünəməxsusluğunu əks etdirir.

- Rauf Hacıyev beynəlmiləl bəstəkar olmuşdur. O, nə qədər milli olsa da, bir o qədər də universal kateqoriyalarla düşünən sənətkar idi. Bunu bəstəkarın müxtəlif xalqların mədəniyyətinə əsaslanan mövzulara müraciət etməsi təsdiqləyir. O, Azərbaycan musiqi mədəniyyətinə qeyri-milli mövzularda (ərəb, latın amerikası, fin, rus və s.) ən çox əsər yazılan bəstəkar kimi daxil olmuşdur.

Beləliklə, ölməz sənətkarın müasirliklə ənənəvinin sintezindən doğan orijinal əsərləri ilə milli incəsənətimizə yeni ruh, yeni nəfəs verən parlaq səhifə yazdığı, onu irəli apardığı təsdiqini tapır. Azərbaycan xalqının milli ruhunu və xarakterini müasir musiqi leksikasında parlaq ifadə edən Rauf Hacıyevin əsərləri xalqın qəlbində əbədi yaşayacaqdır.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı əsərləri çap olunmuşdur:**


1. Hüseynova, K.B. Rauf Hacıyevin musiqili səhnə əsərləri. “Ordan-Burdan” musiqili komediyası // – Bakı: “Sənət Akademiyası”, – 2021. № 2 (14), – s. 57-65.
2. Hüseynova K.B. Rauf Hacıyev yaradıcılığı müasir musiqi mədəniyyətinin reallıqları işığında //“Şərq və Qərb musiqi mədəniyyətlərinin dialoqu” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. 4-5 noyabr 2021-ci il. – Bakı: “Musiqi dünyası”, – 2021. №1/90.– s. 153-155.
3. Hüseynova K.B. Rauf Hacıyev “Yolayrıcı” musiqili komediyası // – Naxçıvan: “Axtarışlar”, – 2022. № 1 (16), – s. 257-261.
4. Hüseynova K.B. Rauf Hacıyev “Gülüşünü gizlətmə və yaxud qafqazlı qardaşqızı” musiqili komediyası // – Bakı: “Sənət Akademiyası”, – 2022. № 1 (16), – s. 95-104.
5. Гусейнова К.Б. Балет “Урия - Свобода» Рауфа Гаджиева в контексте проблемы традиции и современности // – Москва: “Музыка и время”, – 2022. №5, – s. 3-7. http://music.tgizd.ru/ru/arhiv/21211
6. Hüseynova K.B. Rauf Hacıyevin “Ana mən evlənirəm” operettası //– Bakı: “Musiqi dünyası”, – 2022. № 2 (91), – s. 67-72.
7. Hüseynova K.B. Rauf Hacıyevin operettalarında lirik mahnıların üslub xüsusiyyətləri // – Bakı: “Mədəniyyət dünyası”, – 2022. № 41, – s. 103-114.
8. Hüseynova K.B. Rauf Hacıyev yaradıcılığında kino musiqisi // – Bakı: “Bəstəkar və Zaman” Respublika elmi konfransının materialları. 4 - 5 may, 2022, s. 115-122.
9. Гусейнова К.Б. Жанровые и стилистические особенности вокального творчества Рауфа Гаджиева // «Искусство глазами молодых». Материалы XIII Международной научной конференции – Россия, Красноярск: 20-31 апреля, 2022, стр. 3-7. https://seb.e.lanbook.com/
10. Hüseynova K.B. Rauf Hacıyevin “Gənclik” simfoniyası // “X.Uluslararası müzik ve dans kongresi” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları – Bakı: 15-19 avqust, 2022, s.58-60. https://www.academia.edu/108417663/X_Uluslararas%C4%B1M%C3%BCzik_ve_Dans_Kongresi

Dissertasiyanın müdafiəsi ___10___ ___iyun___ 2024-cü il tarixində saat ___13⁰⁰___ Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ___8___ ___may___ 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 06.05.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 42 614 işarə

Tiraj: 100